# Tələbələr üçün praktiki seminarlar

Azərbaycan İqtisadi Universitetinin «Mar - ketinq» kafedrası ştrixli kodlaşdırma haqqında ətraflı məlumat almaq üçün GS1 Azər - baycan Cəmiyyətinə müraciət etmişdi. Kafedranın müəllimləri Leyla Hacıyeva və Hicran Muradova 3-cü kursun Azərbaycan və rus sektorlarının tələbələri üçün seminar - ların keçirilməsini xahiş etmişdirlər. Tələbələrin ixtisasını nəzərə alaraq may-iyun aylarında Cəmiyyətin mütəxəssisləri tərəfin - dən video materiallardan istifadə etməklə ştrixkodlaşdırma sisteminin yaradılması, is - tifadə sahələri, ştrixkodların rəngləri, ölçüləri, növləri, izləmədə və logistikada avtomatik identifikasiyanın istifadəsi haqqında onlara məlumatlar verildi.
Bundan başqa tələbələrə ştrixkodlaşdırma avadanlıqları, standartlara uyğun olmayan kodlar göstərilmişdir.

Qeyd etmək lazımdırki, tələbələr böyük ma - raqla mütəxəssisləri dinləyirdilər və çoxlu suallar verirdilər.
Müəllim və tələbələrə GS1Azərbaycan Cə - miyyətinin metodik-informasiya materialları paylanmışdır.












